ÖMÜRDƏN KEÇƏN ANLAR

26 dekabr 2014-cü il, cümə XALQ QƏZETİ

Görkəmli jurnalistə həsr olunmuş kitab

■ *Bu günlərdə çapdan çıxmış "İşığa doğru" kitabı tanınmış telejurnalist, Azərbaycan jurnalistika elminin və audiovizual mədəniyyətimizin inkişafına samballı töhfələr vermiş nəzəriyyəçi-alim, filologiya elmləri doktoru, professor Qulu Məhərrəmlinin həyat və yaradıcılığına həsr edilmişdir. Kitabda görkəmli elm və mədəniyyət xadimləri, sənət adamları, ölkə ictimaiyyətinin bir sıra tanınmış nümayəndələrinin yazıları verilmişdir.*

Professor Şirməmməd Hüseynov kitaba giriş sözü yazıbdır. Azərbaycanın böyük ustaları - Bəxtiyar Vahabzadə, Sabir Rüstəmxanlı, Əziz Rövşən, Musa Yaqub Məmməd Aslanın kitabda yer almış yazılarında Q.Məhərrəmlinin şəxsiyyəti və yaradıcılığı müxtəlif prizmalardan təhlil olunmuşdur. Milli Məclis deputatları Elmira Axundova, Nizami Cəfərov, görkəmli elm və mədəniyyət adamları - Rafiq Əliyev, Nizamoddin Şəmsizadə, Fəxroddin Veysəlli, Ramiz Abutalıbov, Əjdər Ağayev və başqaları öz məqalələrində professor Q.Məhərrəmlinin çoxşaxəli yaradıcılığından bəhs etmişlər.

Kitabda Azərbaycan mediasının tanınmış simaları, həmçinin kino və televiziya xadimləri - Vasif Babayev, Arif Əliyev, Elçin Şəxli, Natiq Məmmədli, Rövşən Almazadlı, Oqtay Babazadə, Qədrət Piriyev və başqaları da Qulu Məhərrəmlinin Azərbaycan jurnalistikası və audiovizual mədəniyyətimizin inkişafı naminə göstərdiyi xidmətlərdən söhbət açmışlar.

Kitab "Qanun" nəşriyyatında kütləvi tirajla nəşr olunmuşdur.

60

İŞIĞA DOĞRU

Kredo 2019.- 1 noyabr.- S.13.